# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

### Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində “Təhlükəli Tullantı Poliqonu” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsis edilməsi haqqında

“Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və “Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 14 sentyabr tarixli 200-VI FR nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2024-cü il 25 dekabr tarixli 6-VII FR nömrəli Fərmanının 4.4-cü bəndinin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində bütün payları dövlətə məxsus olan və Naxçıvan Muxtar Respublikasının ərazisində əlvan və qara metal tullantıları istisna olmaqla, təhlükəli tullantıların, o cümlədən istehsalat, tibbi, yararsız tullantıların, zərərli kimyəvi maddələrin, civə və civə birləşmələrinin yığılması (toplanması), daşınması, yerləşdirilməsi, çeşidlənməsi, emalı, istifadəsi, utilizasiyası, zərərsizləşdirilməsi və basdırılması üzrə işləri yerinə yetirən, təsərrüfathesablı “Təhlükəli Tullantı Poliqonu” Məhdud Məsuliyyətli Cəmiyyəti təsis edilsin.

2. “Təhlükəli Tullantı Poliqonu” Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra - Cəmiyyət) ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə:

2.1.1. Cəmiyyətin yenidən təşkili və ləğv edilməsi;

2.2. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinə:

2.2.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla, Cəmiyyətin nizamnaməsinin təsdiq edilməsi və nizamnamə kapitalının miqdarının müəyyən edilməsi, onların dəyişdirilməsi;

2.2.2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti ilə razılaşdırmaqla Cəmiyyətin strukturunun, işçilərinin say həddinin və əməkhaqqı sisteminin müəyyən olunması;

2.2.3. Cəmiyyətin xərclər smetasının təsdiq edilməsi;

2.2.4. Cəmiyyətin tabeliyində hüquqi şəxs statuslu qurumların (törəmə və asılı cəmiyyətlərin) yaradılması, yenidən təşkili və ya ləğv edilməsi;

2.2.5. Cəmiyyətin icra orqanlarının yaradılması, onların səlahiyyətlərinin müəyyənləşdirilməsi və səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsi;

2.2.6. Cəmiyyətin icra orqanının rəhbərinin, onun müavinlərinin, nümayəndəlik və filiallarının, həmçinin tabeliyindəki qurumların rəhbərlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

2.2.7. Cəmiyyətin müşahidə şurasının seçilməsi;

2.2.8. Cəmiyyətin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

2.2.9. Cəmiyyətin illik hesabatlarının, maliyyə hesabatlarının təsdiq edilməsi, mənfəətinin və zərərinin bölüşdürülməsi;

2.2.10. Cəmiyyətin xalis aktivlərinin dəyərinin 50 (əlli) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul edilməsi;

2.3. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyinə:

2.3.1. Cəmiyyətin nümayəndəlik və filiallarının yaradılmasına və ya ləğvinə, tabeliyindəki hüquqi şəxs statuslu qurumların yaradılmasına, yenidən təşkilinə və ya ləğvinə razılıq verilməsi;

2.3.2. bu Qərarda qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi:

3.1. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi ilə razılaşdırmaqla bir ay müddətində Cəmiyyətin nizamnaməsini təsdiq etsin, ilkin nizamnamə kapitalının formalaşdırılmasını təmin etsin və fəaliyyətinin təşkili üçün maddi-texniki təminat məsələlərini həll etsin;

3.2. Cəmiyyətin dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq tədbirlər görsün;

3.3. bu Qərardan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "3" aprel 2025-ci il

№ 19